# Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar tədbirlər keçirilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı tədbirlər planı hazırlamışdır.***

Tədbirlər planına uyğun olaraq şəhər və rayonlarda, o cümlədən idarə və təşkilatlarda faciəyə həsr olunmuş konfranslar, toplantılar, mədəniyyət ocaqlarında ədəbi bədii kompozisiyalar təşkil olunur. Hər il olduğu kimi bu il də erməni vandallarının Xocalıda törətdiyi soyqırımını dünya ictimaiyyətinə çatdırmaq üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, diaspor təşkilatlarının xəttilə xarici ölkələrdə bir çox tədbirlər təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin «Xocalı soyqrımıqın 25-ci ildönümü ilə əlaqədar keçiriləcək təbirlər planının təsdq edilməsi haqqında» 24 yanvar 2017-ci il tarixli sərəncamına uyğun olaraq Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 6 fevral 2017-ci il tarixli sərəncamı ilə rayonda keçiriləcək tədbirlərin planı təsdiq olunmuşdur.

Tədbirlər planına əsasən Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə əlaqədar rayonun yaşayış məntəqələrində idarə və müəssisələrdə soyqırımına həsr olunmuş anım günləri, xatirə gecələri, foto və rəsm sərgiləri, Xocalıdan olan məcburi köçkünlərlə görüşlər və sair tədbirlər keçirilir.

Fevralın 24-də təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunmuşdur.

Xocalıdan rayonumuza pənah gətirmiş məcburi köçkünlərlə rayon icra hakimiyyətində görüş keçirilmişdir.

***«Qəbələ».***

# Regional müşavirə

***Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin 11 aprel 2016-cı il tarixli sərəncamı ilə yaradılmış "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin əsas fəaliyyət istiqaməti ölkənin aqrar sektorunun inkişafına təkan verməkdir. Cəmiyyət 1 yanvar 2017-ci il tarixdən etibarən satınalan təşkilatların (təhsil müəssisələri, körpələr evi-uşaq bağçaları, xəstəxanalar, hərbi hissələr, digər dövlət obyektləri və s.) təchizatını həyata keçirir. Bununla birlikdə ASC təchizat səviyyəsini öyrənmək və bölgələrdə yerli məhsulların tədarük potensialını yaratmaq məqsədi ilə regionlarda istehsalçılarla maarifləndirici görüşlərə başlamışdır.***

Bu günlərdə Qəbələ şəhərində Şəki-Qəbələ Regional Bölməsi üzrə (Şəki, Qəbələ, Oğuz) dövlət satınalan təşkilatları və icra nümayəndələrinin iştirakı ilə regional müşavirə keçirilmişdir. Tədbiri Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açmışdır.

"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC İH sədrinin müavini Xaliq Məmmədov müşavirədə çıxış edərək son illər dövlət başçısının rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən tədbirlərdən bəhs etmişdir. Həmçinin Azərbaycan Respublikası Prezidenti tərəfindən Cəmiyyətin yaradılmasının aqrar sektorda tədarük zəncirinin formalaşdırılmasına, fermerlərin istehsal etdikləri məhsulların tədarük olunmasına, eləcədə satınalan müəssisələrin təchizat səviyyəsinin yüksəldilməsinə səbəb olacağını bildirmişdir. Sədr



müavini dövlət başçısının tapşırıqlarına uyğun olaraq tədarük və təchizatın səviyyəsinin yüksəldilməsi məqsədilə cəmiyyət tərəfindən regional görüşlər, sorğular, monitorinqlər keçirildiyini vurğulamışdır.

Diqqətə çatdırılmışdır ki, cəmiyyət hazırda Şəki, Qəbələ və Oğuz rayonlarında 106 körpələr evini və uşaq bağçasını, 5 xəstəxananı keyfiyyətli ərzaq məhsulları ilə təmin edir.

Bütün bölgələrdə keçirilən bu görüşlərin məqsədi regionlarda istehsal-tədarük potensialının aşkara çıxarılması, bölgədə istehsal olunan məhsulların dövlət satınalan təşkilatlarının ərzaq ehtiyacına yönəldilməsidir. Hər bir bölgədə yerləşən uşaq bağçaları, xəstəxanalar, eləcədə hərbi hissələrin ərzaq təminatı həmin bölgənin istehsal imkanları hesabına təmin olunarsa rayonlara böyük həcmdə vəsaitlər daxil olacaq. Əsas məqsəd büdcə vəsaitlərinə qənaət, şəffaflığın təmin olunması, yerli istehsalın dəstəklənməsidir.

Regional görüşdə satınalan təşkilatların ərzaq məhsullarına tələbatı elektron portalından (tedaruk-.az) istifadə qaydaları, qeydiyyatdan keçmə prosedurları ilə bağlı təlimatlar izah olunub. Tövsiyyə olunub ki, hər bir satınalan təşkilat portalda öz tələbatını düzgün yerləşdirməli, dövlət vəsaitlərindən düzgün istifadə edilməsi məqsədi ilə verilən tələbatlar real ehtiyaclara uyğun olmalıdır. Bu istiqamətdə uşaq bağçaları müdirlərinin, xəstəxana nümayəndələrinin çoxsaylı sualları cavablandırılmış, portalla işləmək qaydaları ətraflı izah olunmuşdur.

Regional müşavirənin sonunda satınalan təşkilat nümayəndələri tədarük-təchizat səviyyəsinin yüksəldilməsi üçün təkliflər vermişlər.

***"Qəbələ".***

**İlkin Vəlizadə.**

# Xocalı soyqırımı - XX əsrin ən dəhşətli faciələrindən biridir

***"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."***

**Heydər Əliyev.**

Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur.

XX əsrin faciəsi olan Xocalı soyqırımı aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. Ötən əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi nə idi? Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silmək idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan vardı. Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü. Vəhşicəsinə öldürülənlərin 106 nəfəri qadın, 25-i uşaq, 70 nəfəri qocalar idi. 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Erməni vəhşilərinin Xocalıya hücumunda Seyran Ohanyanın (Ermənistanın sabiq müdafiə naziri) komandanlığı altında Rusiyaya məxsus 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonu, 1-ci batalyonun qərargah rəisi Valeri Çitçyan və həmin alayda xidmət edən 50-dən artıq erməni zabit və praporşik də iştirak etmişdir.

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivil dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan eləcə də Robert Köçəryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Çox təəssüf ki, dünyanın super gücləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən yürüdülən ikili siyasətin nəticəsidir ki, Xocalı faciəsini törətmiş cəlladlar cəzalandırılmır, əksinə Ermənistan adlı terrorçu dövlətin başında durmaqla beynəlxalq təşkilatların tribunasından Azərbaycanın əleyhinə hər cür iftiralar söyləməkdən çəkinmirlər.

**Qüdrət SƏMƏDOV.**

***«Qəbələ».***

# Birgə təlim

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi (FHN) və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyi arasındakı əməkdaşlıq çərçivəsində Qəbələ rayonu ərazisində qar uçqunlarında axtarış-xilasetmə, həmçinin xizəksürmə hazırlığı üzrə təlimlər keçirilib.

Təlimlərə nazirliyin Şimal-qərb Regional Mərkəzinin, Xüsusi Riskli Xilasetmə Xidmətinin və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xilasedicíləri cəlb olunub. Təlim iştirakçılarına avstriyalı mütəxəssislər tərəfindən qar uçqunları altında qalanların axtarışı və xilas edilməsi, ekstremal şəraitdə davranış və dağ relyefində xizəksürmə üzrə hazırlıq məşqləri təşkil olunub.

***«Qəbələ».***

# Dubaydan Qəbələyə birbaşa aviareys açılır

"FlyDubai" Dubay-Qəbələ birbaşa aviareysi üzrə mövsümi uçuşlar yerinə yetirməyə hazırlaşır. Aviareyslər cari ilin iyunun 22-dən sentyabrın 17-dək fəaliyyət göstərəcək.

Şirkət Dubaydan Qəbələyə birbaşa uçuşlar həyata keçirən ilk şirkət olacaq. Aviareyslər həftədə 2 dəfə (cümə axşamı və şənbə) yerinə yetiriləcək.

***«Qəbələ».***